AZƏRBAYCAN RESPUBLİKASI, VƏKİLLƏR KOLLEGİYASININ
SƏDRİ CƏNAB ANAR BAĞIROVA
Bakı şəhəri, Səbail r-nu,H.Seyidbəyli küç.24,mənzil 11
ünvanda yaşayan,Əsədullazadə Asif Yusif oğlu tərəfindən

# TƏŞƏKKÜRNAMƏ

Cənab Anar Bağırov!
Üç il öncə Vergi Cinayətlərinin ibtidai Araşdırılması Departamenti müstəntiqi Bayram Bayramov mənə qarşı qərəzli mövqe tutaraq "Badu-kübə" MTK-nin vergi borcuna heç bir aidiyyatım olmadan məni həmin istintaqa qeyri-qanuni olaraq cəlb etmişdir.Suraxanı rayon məhkəməsinin hakimi cənab Ceyhun Qədimov iki ilə yaxın gedən məhkəmə gedişatında işi dərindən araşdırmış, yüzlərlə şahid ifadəsini dinləmiş,vəkilim cənab Sahib Quliyevin təqdim etdiyi danılmaz faktları əsaslanaraq mənim həqiqətən də "Badu-kübə" MTK və onun vergi borcu ilə heç bir bağlılığım olmadığını sübuta yetirərək mənim barəmdə bəraət hökmü çıxarmışdır.
Respublika Baş Prokurorluğunun İttiham İdarəsinin verdiyi Apelyasiya protestinə Bakı Apelyasiya məhkəməsində baxılaraq Suraxanı rayon məhkəməsinin qərarı qvvədə saxlanılmışdır..
İttiham İdarəsinin Vergi Nazirliyi ilə birlikdə Ali Məhkəməyə verdikləri kassasiya protesti Ali Məhkəmənin qərarı ilə rədd edilmiş və ilkin qərar qüvvədə saxlamışdır.
Bir müstətiqin səhvi ucbatından üç il məhkəmələrə ayaq döyməyimə, ölkədən çıxışıma yasaq edilməsinə, habelə vəkillərə çəkdiyim xərclər və özümün çəkdiyi mənəvi əzablarıma baxmayaraq haqqımda bəraət hökmü çıxarılmasına görə vəkil Quliyev Sahib Şahbala oğlunun əvəzedilməz xidməti vardır.Məhz onun dərin biliyi və bacarığı sayəsində müstəntiq Bayram Bayramovun mənə qarşı açıq=aşkar qanunsuz hərəkətləri ifşa olunmuş,prokurorluq və Vergi orqanının verdiyi protestlərin əsassız olduğu üzə çıxmış və hər üç instansiya mənə bəraət hökmü çıxarmışlar.Onu da nəzərinizə çatdırmaq isəyirəm ki,bu

837
16 03 22

cənab Sahib Quliyevin mənimlə bağlı nail olduğu ikinci bəraət hökmüdür.Mən 2012-ci ildə Baş prokurorluq yanında KQMİ-nin baş korrupsioneri Elxan Əbdürrəhimov tərəfindən günahım olmadan şərlənərək həbs edilmişdim.Həmin illərdə vəkillik fəaliyyətinə yeni başlayan Quliyev Sahib Şahbala oğlu Elxan Əbdürrəhimovun qeyri-qanuni hərəkətlərini ifşa etmiş və o vaxtlar həmin idarənin rəisi işləyən cənab Kamran Əliyevlə sözün əsil mənasında kəllə kəlləyə gələrək, mənim günahsızlığımı sübut etniş və düz 5 il onlarla nübarizə apardıqdan sonra çox çətinliklə mənə bəraət hökmü verilməsinə nail olmuşdur.Bütün bunlara görə vəkil Sahib Quliyevə öz təşəkkürümü bildirir, eyni zamanda onun üzvü olduğu Vəkillər Kollegiyasınən sədri kimi Sizə də dərin minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək qarşıdan gələn Novruz bayramı münasibəti ilə Siz başda olmaqla Sizin rəhbərlik etdiyiniz böyük Vkillər ordusunu, vəkillik adına ləkə gətirməyən, öz işinə vicdanla yanaşan bütün vəkilləri o cümlədən cənab Sahib Quliyevi təbrik edir,hər kəsə ayrı-ayrılıqda can sağlığı, uzun ömür və işlərində uğurlar arzulayıram!

Hörmətlə:

Asif Yusif oğlu Əsədullazadə
Respublika Yazıçılar və Jurnalistlər Birliklərinin Üzvü,"Araz", "Qızıl Ulduz", "Qızıl Buta" və "Qızıl Qələm" mükafatları laureatı, şair

15.03.2022.